# MÜNDƏRİCAT

1. Möcüzə uşaq .................................... 7

2. "Qırmızılar"ın gəlişi .......................... 17

3. 92 sinfi ............................................. 33

4. İkiqat uğur ........................................ 43

5. Arzuları yaşamaq .............................. 53

6. Hiddət................................................. 63

7. Əsaslara qayıdış ............................... 77

8. Üçlü qələbə ....................................... 87

9. Bekhem yenidən doğulur ................. 95

10. Devidin irsi...................................... 101

# 1

# MÖCÜZƏ UŞAQ

1980-ci il sentyabrın 6-da "Mançester Yunayted" komandası Vayt Hart Leyn stadionunda "Tottenhem Hotspur" ilə qarşılaşırdı. Bu, Devid Robert Cozef Bekhemin ilk futbol oyunu idi və oyunda sevimli komandası "Mançester Yunayted"in formasını geyinmişdi. Hələ beş yaşında olanda artıq "Qırmızı şeytanlar"ın qatı azarkeşi idi.

Devid o qədər kiçik idi ki, atası Ted onu baryerlərdən keçirmək üçün qaldırmalı olurdu. Ted, həmçinin komandalar meydana çıxanda Devidi qucağına götürməli idi. Bu mənzərə Devidin nəfəsini kəsəcək qədər həyəcanlı idi. Meydança ona nəhəng görünürdü, oyunçular isə çox balaca idi. Devid, sanki Dünya Çempionatının finalında iştirak edənlər kimi coşqu ilə azarkeşlik edirdi. O, əsl futbol oyununda idi və həyatının ən möhtəşəm anlarını yaşayırdı!

Növbəti doxsan dəqiqə ərzində "Mançester Yunayted" və "Tottenhem" darıxdırıcı oyunu 0:0 hesabı ilə bitirdilər. Stadiondakı hər kəs məyus olmuşdu... Devid istisna olmaqla. O, sevimli koman-



dasına azarkeşlik etmiş və möhtəşəm gün keçirmişdi!

Hakimin son fiti səslənməmişdən əvvəl Ted Devidə getmək vaxtının çatdığını dedi. Oğlunu pillələrdən endirərək stadiondan çıxdılar.

"Ata," dedi Devid, "bir gün mən "Mançester Yunayted"də oynayacağam". "Barnet üçün oynasan belə, gəlib səni izləyəcəyəm", – deyə Ted zarafatla cavab verdi.

O gündən sonra Devid, hamıya futbolçu olacağını deyirdi.

Məktəbdə müəllimlər ondan soruşurdular: "Böyüyəndə nə olmaq istəyirsən?"

"Futbolçu" – deyə o, cavab verirdi.

"Yox, həqiqətən, nə ilə məşğul olmaq istəyirsən, harada işləmək istəyirsən?" onlar yenidən soruşurdular.

"Futbolçu olmaq istəyirəm". Heç kim Devidi arzusundan döndərə bilmirdi.

Ted də "Mançester Yunayted" azarkeşi idi. Hər Milad bayramında o, Devidə "Mançester Yunayted" formasını hədiyyə edirdi. "Qırmızılar" "Arsenal", "Vest Hem Yunayted" və ya "Tottenhem" kimi London komandalarına qarşı oynayanda Ted həmişə təkcə özünə yox, oğluna da bilet alırdı.

Ted Devidi həvəsləndirirdi, çünki özü də "Kinqfişer" adlı futbol komandasında oynayırdı. Devid cümə axşamı tez-tez axşamlar onun məşqlərinə, bazar günü səhərlər isə oyunlarına gedirdi.

